Azadlıq Radiosu

DÜNYA

# Putinin karikaturalarını çəkən rəssam günün günorta çağı güllələndi - Tusk siyasi motivdən danışır

indicə




Rusiyalı rəssam Semyon Skrepetskinin Berlindəki nümayişi

Polşanın baş naziri **Donald Tusk** Rusiya prezidenti Vladimir Putinin kəskin karikaturaları ilə tanınan rusiyalı rəssamın qətlinin böyük ehtimalla siyasi motivli olduğunu bildirib.

Tusk iyunun 17-də deyib ki, rəssam **Semyon Skrepetski**nin (əsl adı Robert Kuzovkov) öldürülməsi ilə bağlı bütün əlamətlər siyasi qətl versiyasını göstərir.

**"Əgər bu qətl Rusiyanın sifarişi ilə törədilibsə, bu, artıq beynəlxalq miqyasda çox ciddi bir məsələdir"**, –Tusk əlavə edib.

Polşa rəsmi qurumlarının məlumatına görə, naməlum silahlı şəxslər iyunun 15-də səhər saatlarında ölkənin şərqində yerləşən Biala-Podlyaska şəhərində Skrepetskini tapança ilə üç dəfə vurublar. Rəssam yerə yıxıldıqdan sonra hücum edən şəxs ona yaxınlaşaraq daha iki dəfə atəş açıb. Polşa hökuməti rəssamın vaxtilə ona təklif olunan mühafizədən imtina etdiyini açıqlayıb.

Hadisə ilə əlaqədar iki Belarus vətəndaşı saxlanılsa da, sonradan sərbəst buraxılıb. Hazırda Polşa xüsusi xidmət orqanları araşdırmaları davam etdirir.

"France Press" agentliyinin yazdığına görə, bu hadisə ötən ilin payızında Polşa ərazisinə dronların düşməsi ilə gərginləşən Polşa-Rusiya münasibətlərində yeni bir böhran yarada bilər. Varşava həmin insidentlərə görə birbaşa Moskvanı məsul sayır.

## Müxalifəti də tənqid edirdi

Skrepetski Putin, Ramzan Kadırov, keçmiş sovet lideri İosif Stalin, Ukrayna prezidenti Volodimir Zelenski və rusiyalı mərhum müxalifətçi Aleksey Navalnı da daxil olmaqla müxtəlif siyasi fiqurları hədəf alan sərt satirik əsərləri ilə tanınırdı. Onun ən məşhur işlərindən biri pravoslav ikonaları üslubunda hazırlanmış əsər idi. Həmin rəsmdə İsa Məsihi qucaqlayan Məryəmin yerində Stalinin Putini bağrına basdığı təsvir olunurdu.

Skrepetski 2021-ci ildə Rusiyada siyasi təqiblərdən ehtiyat etdiyini bildirərək Polşaya köçmüşdü. O, burada həm Rusiya müxalifətinin tədbirlərinə qatılır, həm də onları açıq şəkildə tənqid edirdi.

Bundan əvvəl də Rusiya hakimiyyətinin bir sıra tənqidçiləri xarici ölkələrdə – Böyük Britaniya, Almaniya və Litvada bənzər hücumların qurbanı olublar. Moskva isə bu sui-qəsdlərlə hər hansı əlaqəsinin olduğunu həmişə rədd edib.

AzadlıqRadiosunun rus xidmətinin yazdığına görə, onun ölümündən sonra sosial şəbəkələrdə ən çox müzakirə olunan məsələ qətlin motivindən çox, sifarişçilərin Avropa İttifaqı ölkəsində günün günorta çağı faktiki olaraq açıq edam həyata keçirə bilməsi olub. Bir çoxları qeyd edir ki, Skrepetski nə keçmiş QRU polkovniki Sergey Skripal, nə də çeçen səhra komandiri Zelimxan Xanqoşvili idi. Buna baxmayaraq, onun öldürülməsi Avropada siyasi motivli zorakılıq təhlükəsi ilə bağlı narahatlıqları yenidən gündəmə gətirib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur